# Professor Mahirə Nağıqızının şeir yaradıcılığında ANA obrazı

Bayatı və nağıllarımızdan başlayaraq bu günə qədər bütün bədii nümunələrdə ana, vətən obrazı ön sırada dayanıb. Çünki ana həyatın, insanlığın yaradıcısı, vətən isə onu boya-başa çatdıran, qayğısına qalıb xoşbəxtliyə qovuşduran məkandır ki, onu anaya bərabər tutub Ana Vətən adlandırırıq. Ana və Vətənlə bağlı şeiri olmayan şairə rast gəlmək qeyri-mümkündür. Yaradıcılığında ana obrazını daha canlı və qabarıq şəkildə oxucularına təqdim edən sənətkarlardan biri də çağdaş poeziyamızın sayılıb-seçilən, Vətənə və Qarabağ döyüşlərində qəhrəmanlıq göstərən igid əsgərlərimizə həsr edilən şeirlərin və onlarla bağlı oxunan mahnıların mətninin müəllifi olan məhsuldar şairə Mahirə Nağıqızıdır.






**Sərdar ZEYNAL**
**(Sərdar Səyyad oğlu Zeynalov),**
*Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, filologiya elmləri doktoru, ADPU-nun Müasir Azərbaycan dili kafedrasının professoru*

M.Nağıqızının yaradıcılığı geniş və çoxşaxəlidir. Onlarla fundamental elmi əsərin müəllifi olmaqla yanaşı, həm də elə bir o qədər də şeir kitabının müəllifi olan şairənin yaradıcılığında ana obrazı digər obrazlardan daha qabarıq şəkildə diqqəti cəlb edir. Onun yaradıcılığında Vətən, Ana obrazını bir-biri ilə müqayisə etmək qeyri-mümkündür. Anaya həsr olunmuş şeirlərini oxuyanda gözlərimiz qarşısında Vətən, Vətənə aid şeirlərini oxuyanda isə ana canlanır.

Mahirə Nağıqızının yaradıcılığı geniş olduğundan mən bu məsələ ilə bağlı fikirlərimi yalnız onun 2020-ci ildə nəşr olunan 411 səhifəlik "Onun daş nağılı" kitabında anaya həsr olunan şeirlərlə bağlı söyləyəcəyəm.

Şairənin yaradıcılığı boyu anaya həsr etdiyi şeirlərin sayı ilə bağlı fikir söyləmək qeyri-mümkündür.

Yuxarıda adını qeyd etdiyimiz kitabda şairənin anaya həsr olunan üç şeiri verilmişdir.

Təkcə 2018-ci ildə (bir neçəsi 2017-ci ildə qələmə alınmışdır) yazılan şeirlərin içərisində, yəni bir il ərzində şairənin anaya üç şeir həsr etməsi onun anaya olan tükənməz məhəbbətinin sözlə ifadəsi kimi də qiymətləndirmək olar.

Göz yaşı anaların əlindədir. Övladları xoşbəxtliyə qovuşanda da, analarından ayrılıb uzaq səfərə çıxanda da, uzaq səfərdən qayıdanda da anaların göz yaşı dayanmaq bilmir. Ananın sevincdən axan göz yaşının ağrısına tab etmək qeyri-mümkündür.

Övlad həsrətinin onun qəlbində yaradacaq kədəri əvvəlcədən duyan ana bu həsrətin qarşısını almağa gücü çatmayanda gücü göz yaşı axıtmağa çatır.

Övladın isə anasına "ağlama" deməkdən başqa əlacı qalmır. Mahirə Nağıqızının şeirində olduğu kimi övladı üçün ağlayan anaya üz tutaraq şairə deyir:

*Yenə qəlbim göynətməsin qəlbini,*
*Ağ saçını suya sərib ağlama.*
*Kim böləcək bölünməyən dərdini,*
*Fəqan çəkib qərib-qərib ağlama.*

Hər kəsə məlumdur ki, ananın bir "can" kəlməsi, saçımıza çəkilən bir sığalı ən ağrılı dərdimizin dərmanı, narahat gecələrimizin rahatlığıdır.

Lakin bunun qarşılığında bizim analarımızın dərdlərinə şərik olmağımız, onun dərdini azaltmağımız qeyri-mümkündür.

Şairənin "Anama" adlanan bu şeirini oxuyanda gözlərimin qarşısına Qarabağ döyüşlərində şəhid olan, yaxud gedib qayıtmayan oğulların yolunu gözləyən qəlbi dağlı anaların matəmli obrazları dayanır.

Şairə şeirin ikinci bəndində anaya bu dünyada hər şeyin gəldi-gedər olduğunu söyləməklə, hər bir kəsin bu gedər-gəlməz yolun yolçusu olduğunu diqqətə çatdırmaqla onun dərdini azaltmağa çalışır və bu məqsədlə yazır:

*Ah eləmə, ahu-zarın hədərdi,*
*Bu dünyada hər şey gəldi-gedərdi,*
*Göz yaşının göyətmişəm bu dərdi,*
*Təsəlli ver, durub-durub ağlama.*

Şairənin "Anama" (səh.273) adlanan digər bir şeirində isə hər səfərə çıxan zaman hər şeydən əvvəl ata ocağının ziyarəti, ana xeyir-duasıyla qarşılanıb o xeyir-dua ilə yola salınma anı-mənzərəsi göz önünə gəlir. Səfərdən əvvəl üz tutduğu ata ocağının istiliyini ana qucağının istiliyi ilə müqayisə edən müəllif yazır:

*Gəldiyim həmin ev, həmin ocaqdır,*
*Sənin qucağıntək güvənli, isti.*
*Bilmirəm nə istək, nə umacaqdır,*
*Qəlbim bura çəkir hər səfərüstü.*

Bu cür ziyarətə səfərə çıxan hər bir kəs üz tuta bilər. Ancaq bu şeirin elə birinci bəndini oxuyanda qəlbini birdən-birə kədər duyğuları öz ağuşuna alır. Çıxdığı səfərin sonunun necə qurtaracağını dəqiqləşdirə bilməyən bir övladın yaşadığı duyğuların poetik ifadəsi kimi.

Şairə öz dərdini-sərini öz canından artıq sevdiyi anasından gizlədir, onun dərdinin üzərinə dərd gətirməkdən, sevincinin üzərinə kölgə salmaqdan qorxur. O, yenicə ayrıldığı anasını illərin həsrətlisi kimi əzizləyir, ondan bir an belə ayrılığı illərin həsrətinə bənzədir və yazır:

*Elə bil illərdir səni görmürəm,*
*Bu gün də görməsəm nəyim var itər,*
*Xoşhal danışıram, dərd bildirmirəm,*
*Üzümdən olanı oxusan yetər.*

Şairə dərdinin çoxluğunu dilinə gətirib, onsuz da dərdi böyük olan ananın dərdini artırmaqdan çəkinir, söyləyib, anasının da dərdinin üstünə dərd qoymaq istəmir.

Dərdini anasına söyləyib onun da dərdini artırmaqdan çəkinən övlad buraya təkcə ananı görüb, onunla xudahafizləşmək fikrində deyil. Onun bu səfərindən üzüağ, qalib dönmək üçün ana xeyir-duasına ehtiyacı var. Elə bu fikirlə də şairə yazır:

*Elə bil təzədən doğulacam mən,*
*Titrək əllərindən tutsam bir kərə.*
*Ay ana, neyniyim, deyə bilmirəm,*
*Ver xeyir-duanı çıxım səfərə.*

Övladını yola salan ana da narahatdır. Onun hansı yaşda olmasına baxmayaraq, o, anasının gözündə uşaqdır. Ana övladı üçün etdiyi duaların qədəri ilə kifayətlənmir, bunun üçün Tanrıya müraciət edir, onu köməyə çağırır. Övlad ananın yaşadığı həyəcanı, keçirdiyi təlaşı duyaraq öz ürəyində deyir:

*Narahat baxırsan, gizli baxırsan,*
*Gəzirsən davamı öz ahında sən.*
*Bilirəm min dəfə gedib çıxırsan,*
*Durursan Tanrının dərgahında sən.*

Şairənin anaya həsr etdiyi üçüncü şeiri də "Anama"(səh.272) adlanır.

Bu şeirdə anaların çəkdiyi əzab-əziyyət, övladlarına göstərdiyi əvəzsiz qayğı öz yuxusuna haram qataraq səhərdən axşamadək onların qulluğunda dayanmaq, buna baxmayaraq üzündə həmişə təbəssümü qoruyub saxlamaq kimi müsbət keyfiyyətlər öz əksini tapır. Müəllif beş bəndlik şeirdə yaratdığı ana obrazını oxuculara nümunə göstərir. Özünün çəkdiyi ağrı-əzaba baxmayaraq, həmişə övladlarının qarşısına gülərüzlə çıxan, öz dərdsərini onlardan gizli saxlamağa çalışan müqəddəs bir ana obrazı yaradır. Milyonlarla analara nümunə ola biləcək bir ana obrazı. Şairə obaşdan durub sakitcə dolaşa-dolaşa (uşaqlar yuxudan durmasın deyə) ev işlərini yerinə yetirən anaya müraciətlə deyir:

*Yadımdan çıxmaz ki, hər səhər erkən,*
*Elə gəzinərdin evdə yavaşdan.*
*Nə cür çatdırırdın, deyə bilmərəm,*
*O boyda işləri durub o başdan...*

Bu qayğı təkcə ananın övladlarına göstərdiyi qayğının göstəricisi deyil, bu, həm də özündən sonra gələn xanımlara-qızlara nümunə göstərilən ana obrazıdır. Ana övladına nəyi isə sözlə deyil, nümunə ilə göstərmək istəyir. Göstərmək istəyir ki, övladını sevən əsl ana necə olmalıdır, onlara necə qayğı göstərməlidir. Bu, bu gün övladlarını kiçik yaşlarından körpələr evinə, internatlara atıb qaçan tək-tək ana adına ləkə gətirənləri analıq şərəfini qorumağa səsləyən bir acı çağırışdır.

Müəllif əsl ananın hansı keyfiyyətlərə malik olmasını bu şeirdə qabarıq şəkildə ortaya qoyur.

Müəllifin şeirinin qəhrəmanı namazını və orucunu bir dəfə də olsun yadından çıxarmayan, əsl və nümunəvi bir Azərbaycan qadınıdır. Tapdığına şükr edən, onunla kifayətlənən bir Azərbaycan qadını. Elə bütün bunları nəzərdə tutaraq müəllif yazır:

*Hər günə şükr etdin sabah ertələr,*
*Yaddan çıxarmadın oruc namazı.*
*Bir nəfər görmədi, səni bir nəfər,*
*Həyatdan gileyli, bəxtdən narazı.*

Bütün bu əzab-əziyyətinə baxmayaraq ana öz övladlarından qayğısını əsirgəmir, yorulub əldən düşsə də, bu yorğunluğu övladlarından gizləməyə çalışır. Bunun üçün o heç vaxt üzündən təbəssümü azaltmır, əksinə daha da çoxaltmağa çalışır. Öz acısını təbəssümlə pərdələməyə çalışır; bunu duyan şairə yazır:

*Sənə açılan gün sənin deyildi,*
*Bizlə bölüşübsən lap əvvəlindən.*
*Necə saxlayırdın möcüzə idi,*
*Yorğun gözlərində təbəssümü sən?!*

Müəllif şeirdə ananın üzündə yaşatdığı bu təbəssümü övladlarının həyatda qazandıqları ən qiymətli var-dövlət hesab edir. O hesab edir ki, uşaq yaşlarından başlayaraq ana təbəssümü ilə əhatə olunan hər bir kəsin qisməti xoş bir gələcəkdir.

Şairə bu fikri sözlə ifadə edərək yazır:

*O gözün nuruyla dünya göründü,*
*Oradan başladı yolumuz bizim.*
*Həmin təbəssümdür, bəlkə də, indi,*
*Ən böyük sərvəti hər birimizin.*

Müəllif şeirin sonunda belə bir nəticəyə gəlir ki, həyatda nə varsa, hamısının özünə görə qədəri, qiyməti var. Həyatda nə varsa o müəyyən dəyərə, qiymətə malikdir. Həyatda olan bir varlıq var ki, ona qiymət vermək, dəyər vermək, onu dəyərləndirmək insan düşüncəsindən kənar bir məsələdir. Bunu nəzərə alan şairə şeirin son bəndində deyir:

*Ay ana, bilirəm bu kainatda,*
*Qiyməti nə varsa oyun-oyuncaq.*
*Hər şeyin qiyməti olur həyatda*
*Sənin qiymətini tapmadım ancaq.*

Ana zəhmətinə, ana sevgisinə dəyər verməyi bacarmaq hər kəsə, hər övlada, hər şairə qismət olan qabiliyyət deyildir. Özü də analıq şərəfini daşıyan bir şəxsin-bir şairənin anaya verdiyi qiymət tamamilə başqa bir məsələdir.

Bizə elə gəlir ki, anaya həsr edilən bu şeirləri oxuyan hər bir gənc qız əsl ananın hansı keyfiyyətlərə sahib olmalı olacağını bu şeirlərdən öyrənəcək, bu şeirlərdə söylənənləri öz həyati istəklərinə çevirəcək.